# Nobel mükafatçısı



■ Çeslav Miloş

### POEZİYA SƏNƏTİ

Mən həmişə azad formalara can atmışam
Nə şeirin, nə də nəsrin töhmətinə tuş gəlsin.
Bir-birimizi elə anlayaq ki,
Müəllifin də, oxucunun da ruhu incəməsin.

Poeziyanın lap məğzində yaramaz bir şey var:
İçimizdə qıvrılıb zərblə çıxan şeyin orda olduğundan xəbərsizik
Belədə gözümüzü qırpırıq, sanki
Pələng sıçrayıb çıxır,
Gün işığında quyruğunu yelləDir.

Buna görə poeziya, şeytan əməlidir, - lap yerində deyilib,
Mələk olduğunu zənn etmək, şübhəsiz şişirtmə olardı.
Şairlərdə bu qürur hardandı, müşküldü bunu bilmək,
Bu fikrin puçluğu utandırır onları.

Hansı ağıllı adam şeytanlar şəhəri olmaq istər?
Kim evdə ikən bir neçə dildə danışar,
Dilini, dodağını udduğu bəs deyilmiş kimi
Onların rahatlığı üçün taleyini dəyişmək istər.

Doğrudu ki, dünən ziyanlı olan bu gün dəyərə dönüb,
Necə düşünə bilərsiz ki, zarafat edirəm,
Yaxud bundan başqa mənalar da çıxardım
Yəni, ironiyayla sənəti göylərə qaldırmaq.

Vaxt vardı, yalnız müdrik kitablar oxunardı,
əzab və düşkünlüyümüzü dərindən hiss etməkçün.
Bu, heç də psixiatrik klinikanın minlərlə
Cild yazısını çevirməklə eyni şey deyil.

Yəni, dünya görünməli olduğundan fərqlidir,
Sərsəm sözlərimizin güzgüsündəki biz deyilik
Buna görə insanlar susub kirimişcə qalırlar,
Beləcə qohum və qonşuların hörmətini qazanırlar.

Poeziyanın məqsədi bizə
Özümüz kimi qalmağın çətinliyini xatırlatmaqdır,
evimiz açıq, qapılar kilidsiz olsun,
görünməz qonaqlarsa istədikləri zaman gəlsinlər.

Razıyam ki, burda dediklərin poeziya deyil,
Çünki şeirlər nadir hallarda və iradənin ziddinə yazılır,
Qarşısıalınmaz təzyiq altında və yalnız o ümidlə ki,
Şeytani yox, ilahi ruhlar bizi seçsinlər.

### XOŞBƏXTLİK

İpisti işıq! Qızıl zolaqlar içində
Şam meşəsi, şamlıq, kanatlar, sakit, dinc
Səhər dumanı içində. Orda dənizim gözlərində
Damcı-damcı əriyirdi çay, balaca körpünün yanında, fleyta səsi.
Uzaqlarda, qədim xarabalıqlarda, o tağların altında
Bapbalaca adamlar gəzir,
Birinin əlində ipək yaylıq. Ağaclar
Qüllələr və dan söküləndə dağlar
Azca dikəldim, mavi dənizi və yelkənləri gördüm...

### GÖRÜNMƏYƏN İP

Bu da keçib gedəcək. Nə baş verəcək? Həyat,
İndi, uduzmağımdan utanmıram.
Qəmgin, tutqun bir ada, suitilər ləhləyir
Yaxud bomboş bir səhra, bu da bəsimdi, bəsim
Bəli, bəli, elədir, - deməyə.

"Yatdığımız zaman da gələcəyə gedirik".
Dözüm yalnız dözülməz şeylərə qatlaşanda gəlir
Biləyimi vurdummu, görünməz ip yaranır,
Üstünə çıxıram, tutub saxlayar məni.

### DUA HAQQINDA

Soruşursan ki, bu dünyada olmayan adama
necə dua etmək olar.
Bildiyim təkcə budu: dua atlasdan tikilmiş körpüdür,
Ayağını basdınmı uçacaqsan, tramplində olduğu kimi
Günəşin bir anlıq dayanmasıyla büsbütün dəyişmiş
Alışıb-yanan qızılın rəngləri üstündən.
Bu körpü səni Dönüş çayının sahilinə aparır
Burda hər şey əksinədir, "var" sözü
Qəfildən gizli mənasını faş edir, dəyişir.
Bayaqdan "sən" dediyimin fərqindəsən yəqin, hər bir kəs, ayrıca
Can qəfəsində çürüyənlərin iztirabına yanır.
Bilir ki, başqa sahil olmasaydı da
Bu körpüylə yerin üstündən keçəcəkdik.

### SÖZLƏR

Sanki havada əl-qol atıb öz-özünə danışırmış kimi
Əlinə kürək alıb tonlarla yer qazırmış kimi sözlər
Bitmir, ömürboyu bitmir,
Ancaq səs səsi boğub öldürür
Sükut gurultunun düz göbəyinə çökür.
Diqqət edin, onun içində nəsə etinasızlıq var.
İçməyi və çənə vurmağı sevərdi, ancaq nə zaman ki alimnüma qadınlar
Onu naşirlərə heç nə göndərməməkdə qınasaydılar, gülümsəyirdi.
Bu yerləri sevərdi, çünki ilkin güc bəsiydi, bir də suitilərin ləhləməsi
Həyat ölümü üstələyir,
Axın köpükdə boğulur. İllüziya sıfır həddində.
Elə bil ki, bu uzaq, çox uzaq bir ölkədə olmuşdu
Uşaqlığından, nə vaxt ki, bütün bunlardan bilmərrə xəbərsizdi
İçindəki özəyi xilas etmək istəyən adamlar
Hər gecə, şam işğında, sözbəsöz...

### BULUDLAR

Buludlar, buludlar, qorxunc buludlar,
Ürək necə döyünür, torpaqda nə qədər şəfqət və dərd var,
Buludlar, qara buludlar, ağ buludlar, dilsiz-ağızsız buludlar
Dan söküləndə sizə baxım, gözlərim yaş içində,
Bilirəm, dikbaşlığımı
Amansızlıq və nifrət toxumu içimdə
Ölmüş adamın yuxuları yatağında hey toxunur,
Yalanımsa rənglərin cəlalıyla
Həqiqətin üstünü örtdü.
Gözlərini yerə dikib
Hiss edirəm o burulğanın içimdə yeridiyini
Qupquru, yandırıcı. Siz necə qorxulusunuz
Siz, buludlar, dünyanın qoruyucuları
Yatmaq istəyirəm
Qoy gecə şəfqətiylə qarşılasın məni.

### MƏHƏBBƏT

Məhəbbət özünə baxmaqdı
Kənardan, sanki yad adama baxırmış kimi
Sən ətrafdakı mindən birisən ancaq
Kim belə baxa bilər ki, heç özün də bilmədən
Həyəcanlı qəlbimə təskinlik verdim
Ona və ağaca, quşlar da civildəşsin, dost deyə
Sonra o və yerdə qalan hamı, kim ki o yandan gəlib
Özünü verib irəli, gözündə günəş gülür.
Qoy heç bilməsin nəyə xidmət etdiyini,
Ancaq elədiyi bunu anlayaydı kaş.

### HARDA OLSAM

Bu yer üzündə
Harda olsam, hara düşsə güzarım,
insanlardan
Oralı olmadığımı gizlədirəm
Hesab edin ki, hardansa göndərilmişəm,
Gücüm çatınca güllərin, səslərin,
Təcrübə və qoxuların
iyini çəkim sinəmə.
İnsanın qismətinə nə düşsə
Hər şeyi,
Bildiyim hər şeyi
Cadugər cədvəlinə çevirim
Və gəldiyim yerlərə aparım

* * *

Yasaq şeylərə toxunma,
Açma sirdirsə hər şey
Açsan dəlib deşəcək,
Açsan ziyan vuracaq
Uşaqlığın bir anı - qapı önündəsən, açmağa qorxursan
Kabus varmış kimi
Ancaq açıb nə görəcəkdin ki
Onda bir şey, indi başqa, bambaşqa.
İndi qocayam
Hər şeydən o qədər yazmışam
Gözlərim ağrıyır
Ancaq öyrəndim bunu da: yaxşısı, bəlkə elə ən yaxşısı
Susmaqdır

### DÜNYANIN SON GÜNÜNDƏ

Dünyanın son günündə
Arı ərik gülünün başına fırlanır,
Balıqçı şəfəqlərlə oynaşan torları yamayır
Delfinlər sevincdən atılıb-düşür dənizdə,
Sərçə balaları navalçaya ilişib qalıb
İlan qabığı günəş altında parıldayır mis kimi.
Dünyanın son günündə
Əllərində çətir qadınlar çöl boyu gəzirlər
Sərxoşun biri çəmənliyin qırağında tirlənib
Göyərtisatan küçədə bağırır
Sarı yelkənli gəmi sahilə yan alır,
Hava skipka səsi qoxuyur
Ulduzlu göyləri üzümüzə açır.
İldırım və göy gurultusunu gözləyənlərsə
Bəxtlərindən küsüblər.
Göylərdən əlamət və işarə gözləyənlər
Hər şeyin başlandığına hələ də inanmırlar.
Hələ ki günəş və ay göydədir
Hələ ki eşşəkarıları qızılgülün qonağıdı
Hələ ki gül kimi balalar doğulur
Hər şeyin başlandığına necə inanasan.
Yalnız çalsaçlı qoca, bəlkə elə peyğəmbər
Ancaq o deyil, deyil, oxşatmışıq sadəcə,
Pomidorları bir yerə yığır, dodaqaltı deyinir:
Dünyanın başqa sonu olmayacaq, - deyir.

**Tərcümə edən:**
**Cavanşir Yusifli**